Bülleten № 06 / iyun 2013

Elektron Hökumət Portalı

your gateway to all public services

www.e-gov.az

Rabitə və İnformasiya Texnologiyalari Nazirliyinin
Məlumat Hesablama Mərkəzi

İYUN 2013

# Elektron Hökumət Bülleteni




## Vətəndaş və dövlət qurumları münasibətlərində yeni səhifə




UKAS ENVIRONMENTAL MANAGEMENT 005

# "Elektron hökumət" portalının mobil qurğular üçün versiyası təqdim edilib




**"Elektron hökumət" portalı vasitəsilə hər bir azərbaycanlını maraqlandıran istənilən məlumatların əldə olunması imkanlarının yaradılması üzrə işlər davam etdirir.**

May ayında planşet və smartfon istifadəçiləri üçün nəzərdə tutulmuş "Elektron hökumət" portalının mobil versiyası təqdim edilib. Burada (www.e-gov.az/mini) istifadəçilər elektron xidmətlərdən sadə formada yararlanmaqla yanaşı, portalda yerləşdirilən xidmətlər haqqında ən yeni məlumatları daha rahat əldə edə bilərlər.

Yaradılan yeni imkanların əsas məqsədi xidmətlərin göstərilməsi üçün dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafəni" maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır.

Qeyd edək ki, "Elektron hökumət" - dövlət qurumları tərəfindən əhaliyə xidmət göstərilməsinin yeni üsuludur. "E-hökumət" - vətəndaşlara dövlət tərəfindən verilən xidmətlərin elektron mühitdə təqdim edilməsi deməkdir. Burada dövlət xidmətləri vətəndaşa ən asan, ən qısa zaman ərzində çatdırılır.

Portal müxtəlif qurumlar tərəfindən təqdim olunan xidmətlərə tək bir internet saytı üzərindən daxil olmaq imkanı verir. Dövlət idarəçiliyində müasir texnologiyaların tətbiqini genişləndirməklə həyata keçirilən fəaliyyətin səviyyəsini yüksəldir və onlardan istifadə imkanlarını sadələşdirir.

# "Elektron hökumət" portalına müraciət edənlər hansı mobil qurğulara üstünlük verir?

**Portalın operatoru cari ilin yanvar may aylarında "Elektron hökumət" portalına müraciət etmiş istifadəçilərin hansı mobil qurğulardan istifadə etdiklərinin statistikasını təqdim edib.**



Qeyd edək ki, sözügedən dövr ərzində portala 216001 nəfər müraciət edib. Onlardan 203929 nəfəri portala daxil olmaq üçün portativ kompüter və ya noutbuklardan istifadə ediblər. "Elektron hökumət"ə müraciət etmiş 12072 nəfər isə mobil qurğulardan istifadə edib.

www.e-gov.az

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron Hökumət" Dünya Azərbaycanlılarının vahid informasiya məkanına çevrilir

"Elektron Hökumət" portalı nəinki ölkə daxilində, hətta xarici ölkələrdən olan istifadəçilər üçün də böyük maraq doğurub. Hazırda portalın istifadəçi auditoriyası yüksələn xətlə daha da genişlənməkdədir. Cari ilin yanvar may ayları ərzində "Elektron Hökumət" portalına müraciət etmiş istifadəçilərin ölkələr üzrə dislokasiyası da bunu əyani təsdiqləyir.

Dünyanın bütün ölkələrindən, o cümlədən ABŞ, Rusiya, İngiltərə, Türkiyə, Almaniya, Rumıniya, Ukrayna, Danimarka və s. ölkələrdə yaşayan istifadəçilərin portala müraciət coğrafiyası şəkildə əks olunub. Buna əsasən qeyd edə bilərik ki, portal Dünya azərbaycanlılarının vahid informasiya məkanına çevrilməkdədir.

Hazırda, hər bir azərbaycanlını maraqlandıran məlumatların bu portaldan əldə olunması imkanlarının yaradılması üzərində işlər aparılır.

Qeyd edək ki, "E-hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır.




| Страна или регион | Посещения | Страниц/посещение | Ср. продолж .посещ. | Новые посещения, % | Показатель отказов |
|---|---|---|---|---|---|
| | 52 934<br>% от общего количества: 100,00 % (52 934) | 3,72<br>В среднем по сайту: 3,72 (0,00 %) | 00:05:10<br>В среднем по сайту: 00:05:10 (0,00 %) | 56,22 %<br>В среднем по сайту: 55,99 % (0,41 %) | 42,20 %<br>В среднем по сайту: 42,20 % (0,00 %) |
| 1. Azerbaijan | 50 647 | 3,76 | 00:05:13 | 55,52 % | 41,98 % |
| 2. (not set) | 1 194 | 2,68 | 00:03:39 | 75,38 % | 47,15 % |
| 3. Russia | 242 | 2,83 | 00:03:30 | 65,70 % | 47,93 % |
| 4. United States | 149 | 2,59 | 00:02:09 | 87,25 % | 55,03 % |
| 5. Romania | 107 | 3,16 | 00:07:17 | 30,84 % | 40,19 % |
| 6. United Kingdom | 106 | 2,93 | 00:04:30 | 65,09 % | 47,17 % |
| 7. Turkey | 88 | 3,27 | 00:04:54 | 71,59 % | 38,64 % |
| 8. Germany | 71 | 3,21 | 00:04:49 | 69,01 % | 38,03 % |
| 9. Ukraine | 35 | 1,94 | 00:01:36 | 94,29 % | 54,29 % |
| 10. Australia | 31 | 1,81 | 00:04:33 | 12,90 % | 64,52 % |

# Vergilər Nazirliyinin Elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin təqdimatı olmuşdur

ASAN imza

Mayın 2-də Bakıda Vergilər, Rabitə və İnformasiya Texnologiyaları nazirlikləri və "ASAN xidmət"in birgə təşkilatçılığı ilə "ASAN imza" – mobil hökumətin açarıdır" mövzusunda konfrans keçirilib.

Konfrans Vergilər Nazirliyinin elektron imza üzrə Sertifikat Xidmətləri Mərkəzinin təqdimatına həsr olunmuşdur. Konfransın açılışında vergilər naziri Fazil Məmmədov və rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov çıxış etmişlər. Bildirilmişdir ki, konfransın məqsədi vergi sistemində "ASAN imza"ya sahib olmağın prosedur qaydaları və gələcəkdə vətəndaşların elektron hökumətin xidmətlərindən istifadəsini müzakirə etmək və ictimaiyyətin diqqətinə çatdırmaqdır.

***AzərTAc***

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Elektron hökumət" portalına daxil olanlar haqda növbəti statistik məlumatlar açıqlanıb

Portala daxilolmaların statistik uçotunun aparıldığı tarixdən - 2012-ci ilin dekabrından 2013-cü ilin iyun ayının 1-nə qədər portala daxil olanlar haqda detallı məlumatlar təqdim olunur. Qrafikdən (şəkil 1) də göründüyü kimi, portala ümumilikdə 223 819 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 141 188 nəfər olub. Belə ki, 141 188 nəfər ümumən 223 819 dəfə portala baxıb. Həmin şəxslər 737 606 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 4 dəqiqə 19 saniyə olub.

Qeyd edək ki, bu rəqəmlər kifayət qədər yüksək göstəricilər hesab edilir. Həmçinin sözügedən rəqəmlər portala daxilolma səviyyəsinin, eyni zamanda elektron xidmətlərdən istifadə vəziyyətinin getdikcə yüksəlməsini təsdiqləyir.

Ümumilikdə bu gün vətəndaşlarımızın portala marağının artması müşahidə olunmaqdadır. Bu dövr ərzində portala müraciət edənlərin 63.7% yeni istifadəçilər, 36.3% isə təkrar müraciət edənlər təşkil edib.

Müqayisə üçün may ayının statistikasına (şəkil 2) nəzər salsaq, bu dövrdə portala 58 316 daxilolma qeydə alınıb. Portala müraciət edənlərin ümumi sayı isə 37 448 nəfər olub. Həmin şəxslər 215 185 müxtəlif səhifələrə keçid ediblər və portala sərf etdikləri vaxt ortalama 5 dəqiqə 07 saniyə təşkil edib. Bu rəqəmlər də kifayət qədər yaxşı hesab olunur və bütün istiqamətlərdə dinamik artım müşahidə olunmaqdadır.

Portalda işləmə müddəti artıb, portala təkrar müraciət edənlərin sayı 42,51% təşkil edib. Ümumiyyətlə, son statistik məlumatlar bir daha sübut edir ki, hazırkı dönəmdə portalın fəaliyyətinin daha da genişləndirilməsi, o cümlədən müvafiq qurumlar tərəfindən yeni elektron xidmətlərin təqdim edilməsi üçün münbit şərait mövcuddur.

Belə ki, bütün elektron xidmətlərin "e-gov"-a inteqrasiya olunub, tam gücü ilə fəaliyyət göstərməsi üçün Portalın operatoru tərəfindən müvafiq texniki mühit yaradılıb və bunun üçün bütün lazımi infrastruktur, imkanlar mövcuddur. Portal bir vasitə, bir platformadır, artıq onun mövcudluğu populyarlaşmaqda və tanınmaqdadır. Bu imkanlıq xidmət təminatçılarımızın daha praktik elektron xidmətlər təqdim etmələri və mövcud xidmətlərin portala inteqrasiya olunmasını sürətləndirməyi şərtləndirir.




ŞƏKİL 1

"E-hökumət" - müasir informasiya texnologiyalarından istifadə etməklə dövlət qurumları tərəfindən Azərbaycan Respublikasının ərazisində yaşayan bütün vətəndaşlara, hüquqi və fiziki şəxslərə, xarici vətəndaşlara və vətəndaşlığı olmayan şəxslərə informasiya və elektron xidmətlərin göstərilməsinə şərait yaradır. Əsas məqsəd dövlət qulluqçuları və vətəndaşlar arasında olan "məsafə"ni maksimum azaltmaq, bu münasibətləri sadələşdirmək və şəffaflaşdırmaqdır. Bu məqsədə nail olmağın əsas vasitələri dövlət orqanları tərəfindən elektron xidmətlərin geniş tətbiqi, onların sayının və keyfiyyətinin artırılması, vətəndaşların xidmətlərdən məmnunluğunun yüksəldilməsidir.

Portala daxil olmaq üçün sadələşdirilmiş kod parol alan istifadəçilərin sayı bu gün 14 710-ya çatıb. Azərbaycan Respublikasında yaşayan və şəxsiyyət vəsiqəsinə sahib olan istənilən vətəndaş kod-parol əldə edə bilər.

Portalın "Facebook" sosial şəbəkəsində istifadəçilərinin sayı isə 47 500 nəfər təşkil edir.




ŞƏKİL 2

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# Vətəndaşların elektron imza əldə etmə imkanları genişləndirilir - artıq “Bank of Baku”dan da əldə etmək olar

***Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi "elektron imza" xidmətlərinin göstərilməsi üzrə bank sektorunda ilk və həlalik yeganə əməkdaşlığa başlayıb.***

Əməkdaşlıq çərçivəsində "Bank of Baku" elektron imza sertifikatlarının verilməsi üzrə xidmətin göstərilməsinə başlayıb. Bu əməkdaşlıqdan yararlanlar eyni zamanda bir sıra üstünlüklərə də malik olacaq. Belə ki, bank kreditlərindən istifadə zamanı elektron imza sahibləri 2 %-lik endirim fürsətindən bəhrələnə biləcək.

Qeyd edək ki, elektron imza müasir dövrün tələbləri ilə ayaqlaşmaq istəyənlər üçün effektiv həll hesab edilir və elektron imza - elektron dünyada şəxsiyyəti müəyyənləşdirmə vasitəsidir. Azərbaycan Respublikasının Qanunlarına əsasən, elektron imza ilə imzalanmış elektron sənədlər əl imzası ilə imzalanmış və möhürlənmiş sənədlərə bərabər tutulur. Elektron imza vaxta qənaət, məxfilik, rahatlıq, bütünlük, tanınma, inkar edilməzlik (məsuliyyətdən yayınmanın mümkünsüzlüyü), işgüzar münasibətlərin və əlaqələrin tamamilə elektron formata keçirilməsi kimi bir sıra üstünlüklərə malikdir.

Daha ətraflı məlumatı bankın 145 telefon məlumat mərkəzindən və www.facebook.com/bankofbaku səhifəsindən əldə etmək olar.




## Dekabr 2012 - May 2013-də Elektron hökumət portalına daxil olmuş istifadəçiləri daha çox hansı brauzerlərdən istifadə ediblər?

| Браузер | Посещения | Страниц/посещение | Ср. продолж .посещ. | Новые посещения, % | Показатель отказов |
|---|---|---|---|---|---|
| | 52 934<br>% от общего количества: 100,00 % (52 934) | 3,72<br>В среднем по сайту: 3,72 (0,00 %) | 00:05:10<br>В среднем по сайту: 00:05:10 (0,00 %) | 56,22 %<br>В среднем по сайту: 55,99 % (0,41 %) | 42,20 %<br>В среднем по сайту: 42,20 % (0,00 %) |
| 1. Chrome | 27 661 | 3,79 | 00:05:16 | 54,49 % | 42,21 % |
| 2. Opera | 9 724 | 3,70 | 00:05:15 | 52,55 % | 44,03 % |
| 3. Internet Explorer | 5 762 | 4,10 | 00:05:45 | 62,81 % | 36,05 % |
| 4. Firefox | 4 876 | 3,74 | 00:05:08 | 53,75 % | 42,21 % |
| 5. Safari | 1 249 | 2,77 | 00:03:08 | 71,66 % | 43,96 % |
| 6. Android Browser | 1 165 | 2,68 | 00:03:40 | 61,29 % | 49,36 % |
| 7. Opera Mini | 931 | 2,64 | 00:03:29 | 76,80 % | 46,51 % |
| 8. YaBrowser | 913 | 3,90 | 00:04:37 | 55,97 % | 42,17 % |
| 9. S40 Ovi Browser | 138 | 2,85 | 00:03:57 | 80,43 % | 50,72 % |
| 10. Maxthon | 102 | 4,33 | 00:07:21 | 54,90 % | 30,39 % |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## “e-Hökumət: Gömrük sahəsində innovasiyalar” mövzusunda 5-ci beynəlxalq elmi-praktiki konfrans keçirilmişdir

Qəbələdə "Elektron hökumət: Gömrük sahəsində innovasiyalar" mövzusunda 5-ci yubiley beynəlxalq elmi-praktik konfrans keçirilib. Trend-in verdiyi məlumata görə, konfransda 55 ölkənin 102 nümayəndəsi iştirak edib. Konfransın əsas məqsədi elektron hökumət quruculuğu və onun tətbiqi ilə bağlı dünya təcrübəsi, elektron idarəçilik sahəsində dövlət qurumları arasında əməkdaşlığın müasir formalarının müzakirəsi, gömrük işində və iqtisadiyyatın digər sahələrində informasiya və kommunikasiya texnologiyalarının tətbiqi və innovativ idarəetmə metodları ilə bağlı mövcud vəziyyətin öyrənilməsi, təcrübə mübadiləsinin aparılmasıdır.

Konfransın açılış mərasimində Dövlət Gömrük Komitəsinin sədri, gömrük xidməti general-leytenantı Aydın Əliyev, Azərbaycan Respublikası rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə, BMT-nin Azərbaycan Respublikasındakı rezident əlaqələndiricisi, BMT-nin İnkişaf proqramının rezident nümayəndəsi Antonius Broek, Dünya Gömrük Təşkilatının Potensialın Gücləndirilməsi üzrə Avropa regional ofisinin rəhbəri Vitali Mikeladze iştirak edib.

Tədbirdə çıxış edən Gömrük Komitəsinin sədri Aydın Əliyev gömrük orqanlarında informasiya sisteminin




təkmilləşdirilməsi və yeni layihələr barədə məlumat verib. Rabitə və informasiya texnologiyaları nazirinin müavini Elmir Vəlizadə 2013-cü ilin "İnformasiya texnologiyalari ili" elan olunduğunu xatırladaq tədbirin keçirilməsinin əhəmiyyətini vurğulayıb. Konfransda "Açıq məlumat gömrük və biznes əməkdaşlığında şəffaflığın artırılması vasitəsi kimi", "Vahid Avtomatlaşdırılmış Elektron İnformasiya Sistemində elektron gömrük ödənişləri", "Xarici iqtisadi fəaliyyət iştirakçısının şəxsi kabineti - elektron xidmət dəstindən kompleks şəkildə özünəxidmətə doğru", "Elektron hökumət və sosial media" və s. mövzulara toxunulub.

## Elektron xidmətlərin göstərilməsinə dair tədris kursu keçirilib



Elektron xidmətlərin göstərilməsi üçün dövlət qulluqçularının informasiya texnologiyalarından istifadə sahəsində hazırlıq səviyyələrinin artırılması məqsədilə Naxçıvan Muxtar Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyində növbəti tədris kursu təşkil edilib.

"ICTnews" elektron xəbər xidmətinin nazirliyə istinadən verdiyi məlumata görə, tədris kursunda dövlət qulluqçularına "Elektron hökumət, elektron sənəd və elektron imza haqqında" Azərbaycan Respublikasının Qanunu barədə məlumat verilib.

Eyni zamanda, dövlət orqanlarında elektron xidmətlərin göstərilməsi qaydaları, tərkibində dövlət sirri təşkil edən məlumatlar olan elektron sənədlərin tərtibi, emalı və mübadiləsi üçün istifadə olunan informasiya sistemlərinin ekspertiza qaydaları, elektron imza, dövlət hakimiyyəti və yerli özünüidarəetmə orqanları tərəfindən elektron imzadan istifadə qaydaları, elektron imzanın yoxlanması və elektron sənəd mübadiləsi qaydaları haqqında mövzular elektron təqdimatlar, slaydlar və digər vizual vasitələrdən istifadə edilməklə tədris olunub.

Sonra Muxtar respublikanın "Elektron hökumət" portalının ilkin variantının təqdimatı keçirilib və müzakirə edilib.

## Səhiyyə Nazirliyinin növbəti elektron xidməti istifadəyə verildi

Səhiyyə Nazirliyinin növbəti yeni elektron xidməti “Elektron hökumət” portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim edilib. Artıq vətəndaşlar Səhiyyə Nazirliyinə göndərdikləri sorğuların və məktubların icra vəziyyətini onlayn izləmək imkanına malik olacaqlar. Axtarış vətəndaşların şəxsiyyət vəsiqələrindəki PİN-ə (sistem tərəfindən avtomatik qeyd edilir), həmçinin daxil olma indeksinə əsasən aparılır. Daxil olma indeksi düzgün qeyd edildikdən sonra vətəndaşlar aşağıdakı məlumatları əldə edə bilərlər: ərizəçinin soyadı, adı, region, müraciət göndərən qurum, daxil olma indeksi və daxil olma tarixi, məktubun məzmunu, icraçılar və icra tarixi.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

# "Dövlət İnformasiya Ehtiyatlarının və Fərdi Məlumatların İnformasiya Sistemlərinin Dövlət Reyestrlərinə" daxil edilmiş informasiya sistemlərinin sayı barədə

Bütün qurumlar üzrə

| № | Qurumun adı | Dövlət İnformasiya Ehtiyaları | Fərdi Məlumatların İnformasiya Sistemləri | Cəmi |
|---|---|---|---|---|
| 1 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzi | 4 | 3 | 7 |
| 2 | Dövlət Gömrük Komitəsi | 1 | | 1 |
| 3 | Dövlət Statistika Komitəsinin Baş Hesablama Mərkəzi | 1 | | 1 |
| 4 | Azərbaycan Respublikasının Ali Məhkəməsi | 6 | | 6 |
| 5 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 1 | | 1 |
| 6 | Dövlət Dəniz Administrasiyası | 1 | 1 | 2 |
| 7 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 2 | | 2 |
| 8 | İqtisadi İnkişaf Nazirliyi | 1 | | 1 |
| 9 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 1 | 1 | 2 |
| 10 | Daxili İşlər Nazirliyinin Baş Dövlət Yol Polisi İdarəsi | | 2 | 2 |
| 11 | "Bakıelektrikşəbəkə" ASC | | 2 | 2 |
| 12 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | | 2 | 2 |
| 13 | Dövlət Miqrasiya Xidməti | | 1 | 1 |
| 14 | Azərbaycan Respublikasının Mərkəzi Bankı | | 2 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | | 4 | 4 |
| 16 | Dövlət Sosial Müdafiə Fondu | 1 | 1 | 2 |
| 17 | Vergilər Nazirliyi | 1 | | 1 |
| 18 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 6 | | 6 |
| 19 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 4 | | 4 |
| 20 | "Azərenerji" ASC | 1 | 1 | 2 |
| 21 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinin Dövlət Torpaq Kadastrı və Monitorinqi Elm - İstehsalat Mərkəzi | 1 | | 1 |
| 22 | Bank "BTB" Açıq Səhmdar Cəmiyyəti | 1 | | 1 |
| 23 | "Ata Sığorta" Açıq Səhmdar Cəmiyyət | | 1 | 1 |
| 24 | Bank Melli İran | | 1 | 1 |
| 25 | "Zamin Bank " ASC | | 1 | 1 |
| 26 | "Alfa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 27 | "Buta Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 28 | "Parabank" ASC | | 1 | 1 |
| 29 | "Paşa Sığorta" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 30 | "Azedunet" MMC | | 1 | 1 |
| 31 | "Kapital Bank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 32 | "Turanbank" Açıq Səhmdar Cəmiyyəti | | 1 | 1 |
| 33 | "Konnekt" Məhdud Məsuliyyətli Cəmiyyəti | | 1 | 1 |
| 34 | Azərbaycan Respublikası Dövlət Neft Şirkəti | 1 | 2 | 3 |
| 35 | "Qala Həyat Sığorta" ASC | | 2 | 2 |
| 36 | "Meqa Sığorta" ASC | | 1 | 1 |
| 37 | "Rabitəbank" ASC | | 1 | 1 |
| 38 | "Bank of Baku" ASC | | 1 | 1 |
| 39 | "Bank Standart" QSC | | 2 | 2 |
| | CƏMİ | 34 | 40 | 74 |

Azərbaycan Respublikası İnzibati Xətalar Məcəlləsinin 181-4-cü maddəsinə əsasən, fərdi məlumatlar haqqında qanunvericiliklə dövlət qeydiyyatı tələb olunan, lakin dövlət qeydiyyatından keçməyən informasiya sistemində fərdi məlumatların toplanılmasına və ya işlənilməsinə görə 300 manatdan 500 manatadək cərimə tətbiq edilir. Əlavə məlumatı https://governmentsregistry.ehdis.az portalından əldə etmək mümkündür.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## May 2013-cü il üçün "Elektron hökumət" portalı vasitəsilə ən çox istifadə olunan e-xidmətlərin siyahısı

| № | Xidmətin adı | Təchizatçının adı | Sayı |
|---|---|---|---|
| 1 | Telefon nömrəsi üzrə axtarış | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 60862 |
| 2 | Pensiya kapitalı barədə məlumat | Dövlət Sosial Müdafiə Fondu | 3574 |
| 3 | Məcburi dövlət sosial sığotasına cəlb olunan gəlirlər və ödənilmiş məcburi dövlət sosial sığorta haqqı barədə məlumatın əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 3530 |
| 4 | Pensiyaçı tərəfindən məlumatların əldə edilməsi | Dövlət Sosial Müdafiə Fondu | 1586 |
| 5 | Pensiya kalkulyatoru | Dövlət Sosial Müdafiə Fondu | 1283 |
| 6 | Azərbaycan adları barədə məlumatın verilməsi | Ədliyyə Nazirliyi | 1214 |
| 7 | PİN-ə görə fərdi məlumatların axtarışı | Daxili İşlər Nazirliyi | 858 |
| 8 | Yol hərəkəti qaydalarının pozuntusu ilə əlaqədar tətbiq edilən cərimələr və cərimə balları barədə məlumatlar | Daxili İşlər Nazirliyi | 725 |
| 9 | Diplom haqqında məlumatlar | Təhsil Nazirliyi | 714 |

## 31.05.2013 tarixə təqdim olunmuş elektron imza vəsiqələri barədə statistik məlumat

| Dövlət qurumlarına verilmiş sertifikatlar | Hüquqi şəxslərə verilmiş sertifikatlar | Vətəndaşlara verilmiş sertifikatlar | Cəmi |
|---|---|---|---|
| 10372 | 265 | 2978 | 13615 |

www.e-gov.az

ELAN

## Fərdi məlumatların informasiya sistemlərinin mülkiyyətçilərinin və operatorlarının nəzərinə!

"Fərdi məlumatlar haqqında" Azərbaycan Respublikası Qanununun 15.1-ci maddəsinə müvafiq olaraq fərdi məlumatların informasiya sistemləri, o cümlədən bu qanunun qüvvəyə minməsinə qədər mövcud olan informasiya sistemləri müvafiq icra hakimiyyəti orqanında dövlət qeydiyyatından keçməlidir.

Fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2010-cu il 17 avqust tarixli 149 nömrəli qərarı ilə təsdiq edilmiş "Fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması və dövlət qeydiyyatının ləğv edilməsi qaydaları"na müvafiq olaraq Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi tərəfindən həyata keçirilir.

Azərbaycan Respublikasının qanunvericiliyində nəzərdə tutulmuş hallar istisna olmaqla fərdi məlumatların informasiya sistemlərini dövlət qeydiyyatından keçirmədən onlarda fərdi məlumatların toplanılmasına və işlənilməsinə yol verilmir.

İnformasiya sistemlərinin dövlət qeydiyyatı "Elektron hökumət" portalında yaradılmış xüsusi bölmə vasitəsilə (***www.e-gov.az*** internet ünvanından) aparılmaqdadır.

Fərdi məlumatların informasiya sistemlərinin mülkiyyətçilərindən və operatorlarından xahiş olunur ki, qanunvericiliklə dövlət qeydiyyatına alınması tələb olunan istifadə etdikləri fərdi məlumatların informasiya sistemlərinin dövlət qeydiyyatına alınması üçün Rabitə və İnformasiya Texnologiyaları Nazirliyinin Məlumat Hesablama Mərkəzinə müraciət etsinlər.

*Ətraflı məlumat **www.mincom.gov.az**, **www.e-gov.az** saytlarından və ya (+994 12) 598 42 73 telefon nömrəsinə, **office@rabita.az** elektron poçt ünvanına müraciət etməklə əldə oluna bilər.*

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2012-ci il 17 oktyabr tarixli 235 nömrəli Qərarı ilə təsdiq olunmuş elektron xidmətlərin portala inteqrasiyası barədə

## MƏLUMAT

01.06.2013

| Sıra № | Dövlət qurumunun adı | Təsdiq olunmuş e-xidmətlərin sayı | Təsdiq olunmuş e-xidmətlərdən portalda olanların sayı | Portalda yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Qurumların öz saytlarında yerləşdirilmiş e-xidmətlərin ümumi sayı | Təsdiq olunmuş e-xidmətlərdən qurumların öz saytlarında olanların sayı |
|---|---|---|---|---|---|---|
| 1 | Xarici İşlər Nazirliyi | 3 | 0 | 0 | 4 | 3 |
| 2 | Daxili İşlər Nazirliyi | 24 | 1 | 2 | 23 | 22 |
| 3 | Ədliyyə Nazirliyi | 17 | 5 | 6 | 9 | 10 |
| 4 | Fövqəladə Hallar Nazirliyi | 4 | 4 | 4 | 4 | 4 |
| 5 | Maliyyə Nazirliyi | 4 | 0 | 0 | 5 | 3 |
| 6 | İqtisadi İnkisaf Nazirliyi | 7 | 7 | 7 | 9 | 7 |
| 7 | Vergilər Nazirliyi | 57 | 4 | 10 | 46 | 46 |
| 8 | Sənaye və Energetika Nazirliyi | 9 | 6 | 6 | 6 | 6 |
| 9 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 12 | 3 | 6 | 12 | 12 |
| 10 | Kənd Təsərrufatı Nazirliyi | 12 | 15 | 16 | 21 | 10 |
| 11 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 18 | 16 | 17 | 21 | 18 |
| 12 | Mədəniyyət və Turizm Nazirliyi | 17 | 0 | 0 | 6 | 2 |
| 13 | Təhsil Nazirliyi | 8 | 0 | 3 | 26 | 4 |
| 14 | Səhiyyə Nazirliyi | 38 | 10 | 10 | 14 | 14 |
| 15 | Rabitə və Informasiya Texnologiyaları Nazirliyi | 16 | 11 | 26 | 25 | 16 |
| 16 | Nəqliyyat Nazirliyi | 5 | 4 | 4 | 5 | 5 |
| 17 | Gənclər və İdman Nazirliyi | 6 | 4 | 4 | 5 | 5 |
| 18 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 1 | 2 | 2 | 1 |
| 19 | Qiymətli Kağızlar üzrə Dövlət Komitəsi | 10 | 10 | 12 | 13 | 10 |
| 20 | Dövlət Şəhərsalma və Arxitektura Komitəsi | 1 | 1 | 1 | 1 | 1 |
| 21 | Qacqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 4 | 4 | 4 | 4 |
| 22 | Dövlət Gömrük Komitəsi | 11 | 0 | 5 | 14 | 11 |
| 23 | Dövlət Torpaq və Xərtitəçıkmə Komitəsi | 9 | 9 | 13 | 10 | 9 |
| 24 | Əmlak Məsələləri Dövlət Komitəsi | 6 | 0 | 3 | 16 | 3 |
| 25 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | 2 | 1 | 1 | 2 | 2 |
| 26 | Dövlət Statistika Komitəsi | 5 | 3 | 4 | 6 | 5 |
| 27 | Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi | 5 | 0 | 0 | 0 | 0 |
| 28 | Diasporla İş üzrə Dövlət Komitəsi | 1 | 0 | 0 | 1 | 1 |
| 29 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 13 | 1 | 1 | 13 | 13 |
| 30 | Dövlət Sosial Müdafiə Fondu | 25 | 4 | 4 | 11 | 11 |
| 31 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 7 | 4 | 4 | 7 | 7 |
| 32 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası (TQDK) | 12 | 10 | 10 | 15 | 12 |
| 33 | Dövlət Miqrasiya Xidməti | 10 | 0 | 0 | 10 | 10 |
| 34 | Dövlət Sərhəd Xidməti | 2 | 2 | 2 | 3 | 2 |
| 35 | Səfərbərlik və Hərbi Xidmətə Cağırış üzrə Dövlət Xidməti | 5 | 0 | 0 | 0 | 0 |
| 36 | Müəllif Hüquqları Agentliyi | 5 | 5 | 5 | 5 | 5 |
| 37 | Satınalmalar üzrə Dövlət Agentliyi | 3 | 0 | 0 | 3 | 3 |
| 38 | Dövlət Mülki Aviasiya Administrasiyası | 3 | 0 | 0 | 3 | 3 |
| 39 | Dövlət Dəniz Administrasiyası | 18 | 18 | 18 | 18 | 18 |
| 40 | Milli Arxiv İdarəsi | 2 | 2 | 2 | 2 | 2 |
| 41 | "Meliorasiya və su təsərrüfatı" ASC | 0 | 0 | 2 | 2 | 0 |
| 42 | "Azərsu" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| 43 | "Azərenerji" ASC | 0 | 0 | 2 | 3 | 0 |
| | **CƏMİ:** | **417** | **165** | **215** | **408** | **320** |

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## May 2013-cü il üçün “Elektron hökumət” portalı vasitəsilə təqdim olunan e-xidmətlərdən istifadə barədə statistik məlumat

| № | Xidmət təchizatçısının adı | Elektron xidmətlər | Xidmətlərdən istifadə |
|---|---|---|---|
| 1 | Milli Arxiv İdarəsi | 1 | 12 |
| 2 | Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsi | 4 | 8 |
| 3 | Sənaye və Energetika Nazirliyi | 4 | 10 |
| 4 | Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi | - | - |
| 5 | Dövlət Şəhər-salma və Arxi-tek-tura Komitəsi | 1 | 8 |
| 6 | Ekologiya və Təbii Sərvətlər Nazirliyi | 2 | 4 |
| 7 | Dövlət Gömrük Komitəsi | 5 | 382 |
| 8 | Dövlət Sosial Müdafiə Fondu | 6 | 9978 |
| 9 | Dövlət Statistika Komitəsi | 4 | 79 |
| 10 | Vergilər Nazirliyi | 10 | 1434 |
| 11 | Ədliyyə Nazirliyi | 6 | 1730 |
| 12 | Dövlət Torpaq və Xəritəçəkmə Komitəsi | 12 | 175 |
| 13 | Fövqəladə Hallar Nazirliyi | 4 | 74 |
| 14 | Müdafiə Sənayesi Nazirliyi | 1 | 2 |
| 15 | Səhiyyə Nazirliyi | 10 | 620 |
| 16 | Qiymətli Kağızlar Üzrə Dövlət Komitəsi | 4 | 5 |
| 17 | Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi | 10 | 26 |
| 18 | Tələbə Qəbulu üzrə Dövlət Komissiyası | 9 | 294 |
| 19 | Dövlət Dəniz Administrasiyası | 13 | 14 |
| 20 | Təhsil Nazirliyi | 3 | 837 |
| 21 | Gənclər və İdman Nazirliyi | 4 | 7 |
| 22 | Əmlak Məsələləri Dövlət Komitəsi | 4 | 155 |
| 23 | İqtisadi İnkişaf Nazirliyi | - | - |
| 24 | Kənd Təsərrüfatı Nazirliyi | 2 | 5 |
| 25 | Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 9 | 1182 |
| 26 | Meliorasiya və su təsərrüfatı Açıq Səhmdar Cəmiyyəti | 1 | 1 |
| 27 | Daxili İşlər Nazirliyi | 3 | 1590 |
| 28 | Dövlət Sərhəd Xidməti | 3 | 8 |
| 29 | Müəllif Hüquqları Agentliyi | 1 | 5 |
| 30 | Prezident yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiya | 4 | 209 |
| 31 | "AzərEnerji" ASC | - | - |
| 32 | "AzərSu" ASC | 1 | 415 |
| 33 | Azərbaycan Respublikası Nəqliyyat Nazirliyi | 7 | 142 |
| 34 | Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 26 | 62974 |
| **CƏMİ** | | **174** | **82385** |

* Cədvəldəki ardıcılıq Nazirlər Kabinetinin struktur sıralanması (http://cabmin.gov.az) üzrədir.

Elektron Hökumət Portalı
your gateway to all public services
www.e-gov.az

## Bakı Gələcək Forumu keçirilib




Bakıda Azərbaycan Futuroloqlar Cəmiyyəti və Minilliyin layihəsinin Azərbaycan bölməsi tərəfindən təşkil olunan 1-ci Beynəlxalq Bakı Gələcək Forumu keçirilib.

Tədbirdə NASA, ABŞ Milli Elmi Fondu, Google şirkəti, Silikon vadisinin Sinqulyariti Universiteti, Rusiya Elmlər Akademiyası, Çin Sosial Elmlər Akademiyası, Rokki-Maunteyn İnstitutunun ekspertləri iştirak edir.

30 yaxın ölkənin nümayəndələrinin qatıldığı foruma dəstəyi Azərbaycan Respublikası Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Prezidenti yanında Strateji Araşdırmalar Mərkəzi və Azərbaycan Dövlət İqtisad Universiteti verir.

Tədbirdə çıxış edən rabitə və informasiya texnologiyaları naziri Əli Abbasov neft-qaz resurslarına malik ölkələr qarşısında dayanan neftdən sonrakı iqtisadi inkişafın necə təmin edilməsi məsələsinə toxunub. Azərbaycanın da neft ölkəsi olduğunu vurğulayan nazir ölkəmizin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu qeyd edərək, növbəti illər üçün inkişafı müəyyənləşdirən "Azərbaycan-2020: gələcəyə baxış" İnkişaf Konsepsiyasında gələcək iqtisadi inkişaf xəttinin elm, təhsil və texnologiyaların vəhdəti üzərində qurulduğunu bildirib.

Nazir həmçinin gələcək prioritet istiqamətlərdən söz açaraq, ölkədə insan kapitalının inkişafı, o cümlədən informasiya texnologiyaları mütəxəssisləri üzrə yüksək ixtisaslı kadr hazırlığının diqqət mərkəzində olacağını, qeyri-neft sektorunu inkişaf etdirməklə iqtisadi potensialın 2 dəfə, 2020-ci ilə qədər İKT-nin həcminin real iqtisadi artımda payının 4 dəfə genişləndiriləcəyini, ölkə əhalisinin elektron xidmətlərlə əhatə dairəsinin hazırkı 20 faizdən 80 faizə qədər artırılacağını və s. kimi məqsədlərə nail olunacağını diqqətə çatdırıb.

Ekologiya və təbii sərvətlər naziri Hüseynqulu Bağırov isə ölkədə iqtisadi artımla bərabər, 2022-ci ildə havaya atılan karbon emissiyalarının 2 dəfədən çox azaldığını, nazirliyin ölkədə meşələrin bərpası istiqamətində tədbirləri gücləndirdiyini, bunun nəticəsində hazırda Azərbaycanın 11, 8 faizinin meşələrlə əhatə olunduğunu diqqətə çatdırıb.

Prezident Administrasiyasının Siyasi təhlil və informasiya təminatı şöbəsinin müdiri Elnur Aslanov son 20 ildə müstəqil dövlətə çevrilən Azərbaycanın qlobal forumların məkanına çevrildiyini qeyd edib. Şöbə müdiri unikal ölkə olan Azərbaycanın mədəniyyət və sivilizasiyanın mərkəzi kimi Qərblə Şərqin qovşağında yerləşdiyini, eyni zamanda ölkəmizdə enerji sektorundan kənarda iqtisadi inkişafa diqqət yetirildiyini də vurğulayıb.

Minillik layihəsinin direktoru Jerom Qlenn isə bütün dünyada İKT-nin inqilabi dəyişikliklərə yol açdığını, gələcək dayanıqlı iqtisadi inkişafın bu yeniliklərdən asılı olduğunu bildirib.

Monteneqronun elm və bilik naziri Sanya Vlahoviç isə gələcəyin proqnozlaşdırılmasının nəticələrindən söz açıb: "Gələcəyi proqnozlaşdırmağın ən yaxşı yolu onu ixtira etməkdir. Bu da yaradıcılıq, innovasiyalar hesabına baş verməlidir. Uğurlu gələcəyə nail olmaq üçün qlobal şəbəkələşmə vacibdir. Bu gün problemləri görməyə və onları həll etməyə kifayət qədər cəsarətli olmalıyıq. Bütün üzləşdiyimiz çətinliklər qlobal xarakter daşıyır. Ona görə də biz onlara qarşı birləşməliyik. Əminəm ki, birləşməklə biz daha yaxşı işləyə və uğurlu nəticələr qazana bilərik".

UNESCO-nun Proqnozlaşdırma Departamentinin rəhbəri Riel Millerin sözlərinə görə, yalnız biliyin bölüşdürülməsi ilə davamlı, təminatlı inkişaf üçün yeni yollar tapmaq, insanlar arasında bərabərliyə, sülhə nail olmaq mümkündür.

Oksford Universitetinin professoru, aparıcı futuroloq, ABŞ-da nanotexnologiyalar üzrə araşdırmaçı Erik Drexler də İKT inqilabının bütün dünyada dəyişikliklərə səbəb olduğunu, nanotexnologiyaların İKT-nin əsasını təşkil etdiyini qeyd edib.

Forumda yeni texnologiyalar, o cümlədən Azərbaycanda ilk dəfə Qoloqrafik Təqdimat nümayiş etdirilib. Eyni zamanda tədbir çərçivəsində 3D printer də sərgilənib.

Daha sonra forum "Gələcəyin iqtisadiyyatında enerjinin rolu, enerji səmərəliliyi", "İKT-nin neft sonrası iqtisadiyyatda strateji rolu", "Nanotexnologiya və gələcək iqtisadiyyatlar" və s. mövzularda təqdimat və panel müzakirələrlə davam edib.

## Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilk elektron xidmətini təqdim etdi

Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Komitəsi ilk elektron xidmətini "Elektron hökumət" portalı vasitəsilə vətəndaşların istifadəsinə təqdim edir. Bu xidmət "Texniki reqlamentlər, standartlar və keyfiyyətin qiymətləndirilməsi prosedurlarına dair sorğuların onlayn təqdim edilməsi" xidmətidir.

Xidmətdən ilk dəfə istifadə edən zaman hüquqi və fiziki şəxslər qurum tərəfindən təqdim olunan formanı doldurmaqla qeydiyyatdan keçirlər. Növbəti açılan pəncərədə vətəndaşlar tələb olunan məlumatlar içərisində "müəssiənin adı" (hüquqi şəxslər üçün), "telefon" (mobil, ev), " e-mail" , "sorğunun mövzusu" və konkret yazılması tələb olunan "sorğunun mətni" bölmələrini qeyd etməlidirlər.

Sonda vətəndaşlar tələb olunan sertifikatlaşdırma və ya inspeksiya fəaliyyəti üzrə orqanın "Əsasnamə"sinin layihəsini təqdim etməklə qeyd olunan xidmətdən asanlıqla istifadə edə bilərlər.

## Dövlət qurumları üçün imza və autentifikasiya tranzaksiyalarının sayı




## Hüquqi və fiziki şəxslər üçün imza və autentifikasiya tranzaksiyalarının sayı




© 2013 Məlumat Hesablama Mərkəzi
Ünvan: Bakı şəhəri, Droqal döngəsi, 702-ci məhəllə
Tel.: 157; Email: office@rabita.az